2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 13 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri                                        26 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilən seçkilərdə 107 saylı Qazax seçki dairəsinin Birinci Şıxlı kənd bələdiyyəsi üzvlüyünə namizəd Məmmədov Telman Nizaməddin oğlunun 107 saylı Qazax seçki dairəsinin 25 və 26 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokollarında səs saylarının düzgün göstərilməməsini iddia edərək nəticələrə yenidən baxılmasına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 13 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə görə əgər şikayət ona baxan ekspert qrupunun səlahiyyətlərinə aid deyilsə, şikayətin aidiyyəti üzrə göndərilməsi barədə müvafiq seçki komissiyası qərar qəbul edir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsinin Birinci Şıxlı kənd bələdiyyəsi üzvlüyünə namizəd Məmmədov Telman Nizaməddin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 13 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü                                        Ramiz İbrahimov